# Canlı möcüzə yaratmaq sənəti




**UNESCO-nun qərarı ilə 1966-cı ildən etibarən oktyabrın 5-i Beynəlxalq Müəllimlər Günü kimi qeyd olunur. Həmin il təşkilat tərəfindən müəllimlərin statusunun artırılması ilə bağlı tövsiyə xarakterli sənəd də qəbul edilib.**

Elm və Təhsil Nazirliyindən bildiriblər ki, hazırda Azərbaycanda dövlət ümumi təhsil müəssisələrində 129 min müəllim fəaliyyət göstərir. 11 minə yaxın direktor və direktor müavini həm də müəllim kimi fəaliyyət göstərir. Bunu da nəzərə alanda, ölkədə, ümumilikdə, 140 minə yaxın müəllim var.

Müəllimlər Günü münasibətilə Bakı şəhərindəki 157 saylı məktəbdə olduq. Yenicə təmir olunmuş bu təhsil müəssisəsində müəllimlərin çalışması üçün hər cür şərait yaradılıb. Məktəbə daxil olanda bizi direktor vəzifəsini icra edən Fatma İbrahimova qarşıladı. Bu məktəbi seçməyimiz təsadüfi deyildi. Bu məktəb gözəl ənənələri ilə seçilir. Ən başlıcası isə qabaqcıl, öz işinə məsuliyyətlə yanaşan, müxtəlif mükafatlara və təltiflərə layiq görülən müəllimləri var. Məktəbin məzunları içərisində Vətən uğrunda müharibədə canlarını qurban vermiş 6 şəhid var.

Sonra Fatma xanım tarix müəllimi, qazi Ruslan Ağamalıyevi, Əməkdar müəllim Nəzakət Əliyevanı, rus dili müəllimi Adil Həmidovu bizimlə görüşə dəvət etdi.




**Qazi Ruslan Ağamalıyev:**

– Müharibənin ilk günündən son gününə kimi qəhrəmancasına döyüşmüşəm. Xocavənd, Füzuli, Cəbrayıl rayonlarının azad olunmasına "Cəsur döyüşçü", "Vətən uğrunda" olmaqla beş medalla təltif edilmişəm. Bizim məqsədimiz təkcə ali məktəblərə tələbə hazırlamaq deyil, həm də vətənpərvər gənclər yetişdirməkdir. Çalışmışam ki, nümunə olum – hərəkətimlə, davranışımla, danışığımla və nəhayət Vətənə sevgimlə. Bunu hansı müəllim bacara bilirsə, o, əsl müəllimdir. Dərslərimdə Qarabağ mövzusunu xüsusi diqqətlə keçir, erməni vandalizminin törətdiyi vəhşilikləri şagirdlərimin diqqətinə çatdırırdım. İşğal edilmiş torpaqlarımızın əhəmiyyətini izah edirdim. Sevindiricidir ki, tələbələrimlə birgə döyüşlərdə iştirak edə bildim. Bu qələbədə az da olsa, xidmətim var. Buna görə qürurluyam. Fəxr edirəm ki, mən müəllim olmaqla yanaşı, qalib Azərbaycan Ordusunun əsgəriyəm.

**Nəzakət Əliyeva:**

– Müəllim ailəsində doğulmuşam. Müəllimlik peşəsini sevirəm. Ona görədir ki, 35 ildir müəllim kimi çalışıram. Bu sənət incədir, duyğusaldır, diqqət tələb edir. Mən ibtidai sinif şagirdləri ilə işləyirəm. Xeyli şagirdin formalaşmasında xidmətlərim olub. Bu xidmətlərimi nəzərə alan ölkə Prezidenti məni "Əməkdar müəllim" adına layiq görüb.

**Adil Həsənov:**

Mən Bakı Slavyan Universitetini fərqlənmə diplomu ilə bitirmişəm. İxtisasımı sevirəm. Müəllimlik ziyalılıqdır, işıqdır, yol göstərəndir. Yeri gələndə müəllim əsgərdir. Biz bunu 44 günlük müharibədə görə bildik. Qələbənin qazanılmasında müəllimlərin də rolu az olmadı. Biz müharibədə necə vətənpərvər gənclik yetişdirməyimizə də əyani şahidlik etdik.

**Mehdi MÜKƏRRƏMOĞLU,**
**Rizvan FİKRƏTOĞLU,**
**"Xalq qəzeti"**

Xalq qəzeti .- 2022.- 5 oktyabr.- S.11.